# Bəmbəyaz vərəqdə - yalnızlıq, Qələmin ucunda - yalnızlıq...



## Necati CUMALI

**Görkəmli türk şairi Necati Cumalı 1921-ci ildə Yunanıstanın Florina şəhərində anadan olub. İki yaşında ikən ailəliklə İzmirə köçüblər.**

**Necati Cumalı bədii yaradıcılığa Ankara Universitetinin hüquq fakültəsində oxuduğu illərdə başlayıb. Bir neçə şeir kitabının, hekayə və romanın, pyesin müəllifidir. Yaradıcılığı dəfələrlə mükafata layiq görülüb. Əsərləri bir çox dillərə tərcümə olunub.**

### YALNIZLIQ

Yalnızlıq aldı, yalnızlıq,
gözlərimin işığını,
ürəyimin sevincini.
Yalnızlıq aldı, yalnızlıq,
eşqimi,
həvəsimi,
gücümü-qüvvətimi...

İllərdi,
küçəyə çıxsam - mənimlədi,
evə gəlsəm - mənimlədi...

İllərdi,
bağlı pəncərələrin arxasından
gözlərini gözlərimə zilləyən
yalnız yalnızlıqdı, yalnızlıq.

Hər qış gecəsi
yalnızlıqdı əsən
evimin önündə.
Yalnızlıqdı məni gözləyən
teatrlarda,
konsert salonlarında,
kafelərdə...

Gülmək istəməməyim -
onun üzündəndir,
Danışmaq istəməməyim -
onun üzündəndir,
Yaşamaq istəməməyim -
onun üzündəndir.

Üzündə də üz var ha!
Əlimin dalı ilə
min yol itələsəm də
yenə qayıdıb gələcək,
Başımın üstünü kəsdirəcək,
Mənimlə nəfəs-nəfəsə
dayanacaq...

Məndən əvvəl keçəcək
yazı masamın arxasına,
Bəmbəyaz vərəqdə - yalnızlıq,
Qələmin ucunda - yalnızlıq...

Baxmayın şən olmağıma,
Baxmayın gülməyimə,
Nə sevgidən doydum,
nə dostluqdan...
Evdə,
küçədə,
teatrda,
konsert salonlarında,
harda görsəniz yalnızlığı,
öldürün, öldürün, öldürün!..

### TÜRKÜ

Mən öləndə
ağlamağını istəmirəm.
Uzaq bir yerə -
deyək ki, qürbətə,
iş dalınca
getdiyimi düşün,
həyatda olduğuma inan.
Sev,
sev məni əski halımla -
Keçib getsin üzüntün...
Hər gələn günü
ümidlə gözləməli,
Gecə
yağan yağışla uyuyursan,
Sabah qalxanda
bir də baxırsan ki,
günəş doğub -
aləm nura qərq olub...

Hər gələn gəmini,
hər gələn qatarı
yeni bir ümidlə gözləməli,
Hər gələn gəmi,
hər gələn qatar
yeni insanlarla gəlir...
Mən əsmər idim,
Sən bu dəfə
sarışınını sevərsən -
eşq yaşayanlar üçündür.

### ÖLDÜRMƏYƏCƏKSƏN

Dinlərin buyurduğu bu:
öldürməyəcəksən!

Bütpərəstlər
düşünüb-düşünüb
çarmıx kəşf etdilər,
əlləri qanlı-qanlı
camilərdən çıxdılar -
peyğəmbərləri dinləmədilər.

> *Gecə yarısı*
> *üzümə,*
> *gözümə*
> *düşən Ayişığı,*
> *insan beləmi olur*
> *sevdaya tutulduğu zaman?*

Qudurğan dalğalar
dənizlərdə gəmiləri uddu,
Dağlardan əsən qara yel
əkinləri qurutdu...

Quru budağa qonub,
"Yaşıl, yaşıl" - deyib ötən
kiçicik sərçəm,
Öt, səsin rüzgarlara qarışsın,
Zalım ürksün,
kar eşitsin:
Öldürməyəcəksən!
Öldürməyəcəksən!
Öldürməyəcəksən!

### TÜRKÜLƏRİN MƏRAMI

Hər dildə
türkülərin məramı birdir:
vətən,
ikigözlü bir ev,
bir nazlı yar...
Kovboyların dilində
bir xam at,
bir kəmənd.
Türkiyəmdə
çobanların dilində
təzə pendir,
təzə çörək...

Xoşbəxt olmaq
hər vaxt əlimizdədir,
Bütün istədiyimiz
bundan ibarət:
Kəndliyə torpaq,
kovboya kəmənd,
Amma hər şeydən öncə
Hürriyyət!
Hürriyyət!
Hürriyyət!

### GÜNƏŞ DƏLİSİ

Axar suyu sevirəm,
bir də işıldayan qarı,
bir də yaşıl yarpağı,
bir də telli böcəyi,
bir də cücərən toxumu.
Günəşli bir günü
Heç nəyə dəyişmərəm -
sevinc doldurar içimi:
buna görə savaşı sevmirəm,
buna görə zülmü sevmirəm,
buna görə yalanı sevmirəm;

Bilirəm,
heç biri yaşamaz günəşdə,
Bilirəm,
heç biri yaşamaz
eşqlə yan-yana, -
nə haqsızlıq,
nə qorxu,
nə aclıq...

## YAY KEÇDİ

Bütün yayı
çeşmənin başında yedik
axşam yeməklərini.

Cevizlər iç tutdu,
Badamların qabıqları qurudu,
heyvalara hopdu gün işığı.

Yay keçdi,
içəriyə yığdıq
stolu, stulları,

Qarışqalar ortalıqdan çəkildi,
çiçəklər yox,
arılar yox,
bal kəsildi,
pətəklər bomboş,
məhzun qaldı...
Yay keçdi... yay keçdi...

## MÜHARİBƏ GÖRMÜŞ ADAMIN DEDİKLƏRİ

Müharibədə
nə ölüm qorxusu
gəlir adamın ağlına,
nə ev-eşik,
Arpacıqla
hədəfin bəyəndiyin
yerini seçirsən
və tətiyi
əlin titrəmədən çəkirsən,
amma ağlıma da gəlmir ki:
bəlkə o da
eynən sənin kimi
məmləkətində
kiçik bir dükan işlədir,
bəlkə o da
eynən sənin kimi
arvadını sevir,
bəlkə onun da
eynən sənin kimi
bir oğlu
və bir qızı var...
Amma...
Amma ağlına gəlmir bunlar,
çünki
sənin yaşamağın üçün
onun ölməsi lazımdı...

## QIZILÇULLU YOLU

Məni hər kəs sevərdi
çocuqluğumda...
Xıdırəlləz günü
Qızılçullu yolu,
arabaçı yanında oturdar,
mənə verərdi qırmacı.

Mən - Fitnat xanımın oğlu,
çəlimsiz bir qız sevərdim,
gözlərinin içi gülərdi.

Xıdırəlləz günəşi,
bərabər dırmaşmadıqmı
ağaclara?
Siz qanatmadınızmı əllərimi,
alma çiçəkləri?

## BUĞDADAN ÖYRƏNDİM ŞEİR YAZMAĞI

Buğdadan, sarı buğdadan
öyrəndim şeir yazmağı,
Min illərdi
dadı dad, tamı tam, -
süfrələrdə
heç dəyişmədi yeri...

Axar sulardan
öyrəndim şeir yazmağı,
bir də
səhralardakı
kimsəsiz, tənha çeşmələrdən,
bir də
dağlardakı
saçaq-saçaq şəlalələrdən,
bir də
dənizlərdən, dənizlərdən, dənizlərdən -
Nə onların sözü tükəndi,
nə də mənim.

Çiçəklərdən öyrəndim şeir yazmağı;
Ağa demədən, qul demədən
hər kəsin yolunun üstündə bitərlər,
mən də eləyəm...

Kəndlilərdən
öyrəndim şeir yazmağı,
torpağı,
yağışı
qadın qədər sevən
kəndlilərdən -
nə istəklərim tükəndi,
nə qıtlıq qırdı ümidlərimi!..

Saysam,
yer-göy tutmaz
ustadlarımın adlarını -
balıqçılar,
sürücülər,
adını belə bilmədiyim ağaclar,
quşlar,
böcəklər,
ceyran misalı ürkək ulduzlar -
Yəqin,
yazdıqlarım xoşlarına gələr.

Necə rəng-rəng açırsa
səhra çiçəkləri,
Daşın altından
necə fışqırırsa bulaq,
Necə tumurcuqlayırsa budaq,
mən də
eləcə yazıram
şeirlərimi,
ürəyimi qanadaraq.

* * *

Saçaq-saçaq yağan yağış,
Sənin üzündən
göy üzündə
neçə-neçə
buludun yeri boş qaldı...

Sevib-sevildikdən sonra
insan beləmi
tək-tənha,
beləmi yalnız olurmuş?
Mən qartal deyiləm,
yüksəklərdə uçum təkbaşıma,
Mən sərçə də deyiləm,
ürəyim yanında
nar ağacının budağından
enəm çeşmə başına...



**Orhan Veli, Sabahattin Eyüboğlu, Necati Cumalı, Azra Erhat, Nurullah Ataç**

## AY İŞIĞI

Gecə yarısı
üzümə,
gözümə
düşən Ay işığı,
insan beləmi olur
sevdaya tutulduğu zaman?

Bütün kitabları
açdım, oxudum,
neçə-neçə dəliqanlıdan,
qənirsiz gözəldən sordum:
xoşbəxtlik bumu?

Aman,
bu gözləri göy mavisi,
bu saçları saman sarısı
o birilərinə heç bənzəmir...
Ah, indi anladım
onun kiçik əlləri,
gülən gözlərilə
məni bu qədər sevdiyini.
Ah, indi anladım
nar dənəsindən təzə,
qu tüküdən zərif gecədə
qəlbimin
bir gəmi kimi
Ay işığında üzdüyünü...

## BİR GÜL AÇIRSA

*Şəhidlərin xatirəsinə*

Bir gül açırsa
indi Türkiyədə,
Eşqlə, ümidlə açır.
Bir bağda
gecə səhərə qədər
bir budaq tumurcuqlayırsa,
bahara inanmaq,
sevinc içində
yaşamaq üçün tumurcuqlayır.

Qanın,
göz yaşının
axdığı yerdə,
Qəhrin,
hüznün olduğu yerdə
indi güllər açır,
işıq-işıq...

Güllər,
bütün güllər bu sabah
bir ağızdan
türkü söylər kimi
açır hər bağçada, -
gecələr gündüzə dönür, budur,
qaranlıq işığa dönür, budur,
kədər sevincə dönür, budur,
Axan qan,
tökülən yaş
gülə, çiçəyə dönür, budur.
Artıq
bütün Türkiyədə yaşamaq
bir ağızdan oxunan
türküyə dönür, budur.

*Hazırladı.*
**DİLSUZ**

